# Azərbaycan filmi Daşkənd festivalında qalib olub

***Özbəkistanda "İpək yolu dürdanəsi" XIII Daşkənd Beynəlxalq Film Festivalı keçirilib. Dünyanın 50-yə yaxın ölkəsindən 350 qonağın iştirak etdiyi festivalda 150 film nümayiş olunub. Daşkənd festivalında fəxri qonaq kimi dünyanın məşhur aktyorları və rejissorları – Stiven Siqal, Mithun Çakrabotti, Timur Bekmambetov, Pavel Priluçnı, Lyuk Besson, Nikita Mixalkov, Nuri Bilge Ceylan, Özcan Deniz və digər məşhur sənət adamları iştirak ediblər.***



Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində "Azərbaycan kinosu günləri"nin açılış mərasimi olub. Tədbirdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan diasporunun numayəndələri, bir sıra universitetlərin müəllim və tələbələri, jurnalistlər iştirak edib. Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev və iştirakçılar əvvəlcə ulu öndər Heydər Əliyevin binanın qarşısındakı abidəsi önünə əklil və çiçək dəstələri düzüb. Mərasimdə çıxış edən səfir uzun illərdən bəri Azərbaycan kinosunun şərəfli bir yol keçdiyini, dünya kino tarixinə qiymətli sənət əsərləri bəxş etdiyini bildirib. Azərbaycan və Özbəkistan kinematoqrafçılarının əməkdaşlığından danışan səfir vurğulayıb ki, tanınmış Azərbaycan kinorejissoru Tofiq Tağızadə vaxtilə "Görüş" adlı film çəkib və bu əsər Azərbaycan-özbək dostluğunun bariz nümunəsidir.

Mərasimdə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzinin və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə istehsal etdiyi, rejissor Osman Əliyevin Vətən müharibəsində şanlı zəfərimizə həsr olunan "Biz" sənədli filmi nümayiş olunub.

Kino günləri çərçivəsində İsmayıl Səfərəlinin "Balıqçının qızı", Əli-Səttar Quliyevin "Olimpia", Kseniya Laqutinanın "Fəridə", Fariz Əhmədovun "Sonuncu", Murad Hüseynovun "Vəhşi durnaların vaxtı", Murad Hüseynov və Səddam Mehdiyevin "İki yol" filmləri Özbəkistanın Daşkənd, Xivə və Nukus şəhərlərində nümayiş etdirilib.

Gənc kinorejissorlar Murad Hüseynov və Səddam Mehdiyevin "İki yol" filmi Daşkənd Beynəlxalq Film Festivalının "5 Gündə Film" müsabiqəsi çərçivəsində "Maarifləndirmə və inkişaf naminə" nominasiyasında qalib olub.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.-2021.-7 oktyabr.- S.7.